Ədəbiyyat qəzeti



# "Sən heç bilirsənmi gözləmək nədi..."

## *Əkbər Qoşalının "Ürək daşı" kitabı üzərinə*



**Sərvaz HÜSEYNOĞLU**

İnsan qəlbinin böyüklüyünə tapınan, ruha qida verən şeirlər sıralanıb Əkbər Qoşalının "Ürək daşı" kitabında. Hər şeir nümunəsi lirik qəhrəmanın öz könül dostlarına olan mənəvi ehtiyacını anlatmaqdadı ki, mən sonsuz bir maraqla kiminləsə, "Əslində, kiminləsə yox, Sizinlə dərdləşmək, həmsöhbət olmaq, könlümü Sizə açmaq istəyirəm. Siz mənim üçün bu dünyada ən vacib və yaxın adamsınız..."

Milli kimliyə, doğma yurda və könül dostlarına qarşı münasibəti, davamlı məhəbbəti ölmək və dirilmək tarixçəsi olan bir söz adamının səmimi, son dərəcə duyğulu qəlb əsintiləri izləyir hər bir poetik nümunəni. Dərdləri iç-içə dəfn olanların, "bitməyən həsrətə tez dönənlər"in, çiçəktək solub gedənlərin əbədi nisgili şan-şan, pətək-pətək sıralanıbdı... Oxucunun dərd, hədsiz intizar ortağına dönür hər bir halıyla Əkbər Qoşalının şeirləri:

*"Can" deyirəm, canım olmur,*
*Sevirəm, sultanım olmur.*
*Olmur, bə, ay canım, olmur,*
*Könlümdən silə bilmirəm...*

Elə bu səbəbdən də Əkbərin bu duyğulu misraları tanınmış türk sənətçisi Sabit İncənin bəstəsində dil əzbərinə dönür. Bir körpə ürəyi, qoca fəhmilə göz atıb dünyaya baxmaq cəhdinin uğurlu poetik mənzərələri süslənib "Ürək daşı" toplusunda. Kitaba yazdığı yığcam və maraqlı ön sözdə İbrahim İlyaslı haqlı olaraq qeyd edir ki, "Əkbər Qoşalı yeniyetməliyindən qələmə aldığı duyğularının xətrini əziz tutub, "Ürək daşı"na daxil edib. Və nə yaxşı belə də edib!.. Ən başlıcası isə, Sözə sədaqətdi ki, bu kitab da, bütövlükdə, türklüyümüzə və türkcəmizə sədaqətin, sevginin duyğusal və poetik bir aynasıdır..."

Ürəklər daş olmamış bütün doğma ünvanlara, Yerə, Göyə, Tanrıya çatdırılması vacib olan mətləblərdən söz açılır "Ürək daşı"nda. Əbədi Turan birliyi düşüncəsinə sevdalı olan bir könül dostunun bəyanı süslənib Ə.Qoşalının misralarında; hər halıyla oxucuya həmrəylik, oyanış, mutluluq duyğuları yaşadır:

*Gəmiləri sudan çəkib,*
*Quru ilə keçirərəm*
*İstanbulun eşqinə...*
*Qılıncımı suvararam*
*"Babək!" - deyən*
*Bir cüt qolun eşqinə.*
*Böyüdərəm doğma yurdu*
*Xətainin başladığı*
*Ulu yolun eşqinə...*

Əkbər Qoşalı hər kəsin könlündən keçənlərin, ancaq hər kəsin yaza, ifadə edə bilməyəcəyi düşüncə və yaşantıların şairidi. O, son dərəcə səmimiyyətlə bu yaşantıların deyim, ifadə tərzini tapır, bütün bunları özünəməxsus gözlənilməzliklə şeirə gətirir. Hər misranı, hər mətləbi tam bir dünyagörmüşlük və şıxlıq hücrəsindən anlada bilir:

*Qoca olmaq istəyirəm,*
*alınmır.*
*Çocuq olmaq istəyirəm,*
*olunmur.*
*Harda isə bir çocuq da,*
*Harda isə bir qoca da*
*Cavan olmaq istəyir,*
*alınmır ki, alınmır.*

*Yazılmamış bir qaydadır;*
*ölüm yoxsa,*
*ömrün heç bir adasında çalınmır.*
*Ölüm yoxsa,*
*Olumların ötəsinə varılmır.*
*Olumların ötəsində ölüm var,*
*Ölümlərin ötəsində olum var.*

Tam da Dədə Qorqud, Əhməd Yəsəvi, Mevlana ruhundan süzülüb gələn həyat incələmələridi... Yozumu belədi ki, bu misraların yazarı eyni ruhdan gəlir, eyni köynəyin (və göynəyin) yaxasından keçənlərdəndi. Əkbər Qoşalı bu qədimliyi Abbas Tufarqanlı, Dədə Ələsgər qovşağınacan yetirə bilir və eyni zamanda da bu oturuşmuş bünövrə-qovşaqdan özünə keçid etməyin yoluna vaqifdir. Məhz




bu səbəbdən də, günümüzün poeziya müstəvisində nadir halda rastlanan ən mükəmməl təcnisini yaratmağa müvəffəq olur:

*Dindən əvvəl sevgi özü din idi,*
*Onda aşiq yardı, onda yar aşiq.*
*Əvvəl sözün "susma" idi, "din" idi,*
*İndi isə susmaq olub yaraşıq...*

Hər şey yerindədi; məna da, sinonim, antonim izləmələri də... Rədif və təcnis qaydaqanunları ilə bir arada! Bu cür uğurlu poetik nümunələr "Ürək daşı"nın səhifələri boyuncadı. "Mən yol ha getmirəm, yola yoldaşam, yolları yığıram ayaqlarıma" unudulmazlığı var Əkbər Qoşalının poetik yaddaşının. Təkcə bir misralıq "Havalıyam, havam çatmır" şeirilə söz mülkündə öz halal yerinə sahib çıxa bilir. "Səndən deyilənlər səndən düz oldu" bitkinliyi var bu poeziyanın. Adamı iliyinəcən kövrəldə bilir, nifrin yağdırırsan biganəliyə:

*Gəlmək var, getmək var, gəlməmək nədi?*
*Cənnət, cəhənnəm var, dözməmək nədi?*
*Sən heç bilirsənmi gözləmək nədi? -*
*İki söz bilirsən: Gözlə, gələcəm!..*

"Ürək daşı", ön sözdə də deyildiyi kimi, "İlk qələm örnəklərilə tamamlanır" və nə yaxşı ki, Əkbərin şeirə, ədəbiyyata hardan gəldiyini oxucularına göstərməkdən çəkinmir". Yenə də ön sözdə deyildiyi kimi, "Ürək daşı" poetik bir ayna kimi təqdim edilir. Səbəbini bilmək üçün bizə bu aynaya diqqətlə baxmaq, göz yetirmək qalır...